

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

14 iyul 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 27 (3590)

# UĞURLA APARILAN QURUCULUQ İŞLƏRİ BÖYÜK QAYIDIŞI SÜRƏTLƏNDİRİR

## Prezident İlham Əliyev işğaldan azad edilən ərazilərin bərpasını milli prioritet elan edib



İlyarım böyük zaman kəsiyi deyil. Lakin bu qısa müddətdə Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərinin miqyası olduqca möhtəşəm və genişdir. Görünən odur ki, cəmi 44 günə azad edilən torpaqlarımız, ermənilərin viran qoyduğu yurd yerlərimiz sürətlə cənnətə çevrilir, öz doğma ata ocaqlarına qayıdacaq vətəndaşlarımız üçün orada ən mükəmməl həyat şəraiti yaradılır.

Müzəffər Ali Baş Komandan İlham Əliyev azad olunmuş ərazilərin bərpası ilə bağlı göstərişlərini hələ Vətən müharibəsinin davam etdiyi günlərdə vermiş, ilk olaraq azad olunmuş Suqovuşana aparan yolların bərpasına başlanılmışdı. Qələbə ilə başa vurduğumuz müharibədən dərhal sonra öncə mühüm infrastrukturların bərpası başda olmaqla, kompleks quruculuq işlərinə start verilmişdi. Azad olunmuş ərazilərdə yolların yenidən qurulması, dayanıqlı enerji təchizatının təmin olunması, o cümlədən Şuşa şəhərinin bərpası istiqamətində layihələrin icrasına başlanılmışdı.

İndiyədək qısa zamanda bir sıra iri layihələrin icrası başa çatdırılıb. Şuşaya gedən Zəfər yolunun salınması, Füzuli Beynəlxalq Hava Limanının inşası, Zəngilanda Ağalı kəndinin bərpası, yeni su-elekrik stansiyalarının, yarımstansiyaların istifadəyə verilməsi, Şuşa şəhərində başlanan bəzi layihələrin yekunlaşması azad olunmuş ərazilərin bərpasının sürətlə həyata keçirilməsindən xəbər verir. Ən əsası, bütün bunlar ərazilərin yenidənqurulması ilə bağlı güclü siyasi iradənin göstəricisidir. Prezident İlham Əliyevin Qarabağa və Şərqi Zəngəzura hər səfəri yeni layihələrin təməlinin qoyulması, şəhərlərin baş planlarının təsdiq edilməsi ilə əlamətdar olur. Müzəffər Ali Baş Komandanın bu günlərdə Kəlbəcər rayonuna səfəri bir daha təsdiq etdi ki, Azərbaycan dövləti işğaldan azad etdiyi ərazilərin bərpası üçün necə əzəmətli layihələr reallaşdırır.

Bir məsələni də xüsusi qeyd etməliyik. Qarabağ və Şərqi Zəngəzurun bərpasını Azərbaycan dövləti öz maliyyə imkanları hesabına həyata keçirir. 2021-ci ildə bu məqsədlə dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayrılmışdı. 2022-ci ilin dövlət büdcəsində də bu həcmdə vəsait nəzərdə tutulmuşdu. Lakin ötən ay dövlət büdcəsinin gəlir və xərcləri artırılıb. Artan büdcə gəlirlərinin 470 milyon manatı işğaldan azad olunmuş ərazilərin bərpasına yönəldilib. Beləliklə, son iki ildə işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinin aparılmasına ümumilikdə 4 milyard 870 milyon manat vəsait ayrılıb.

Bütövlükdə bütün bu məqamlar ondan xəbər verir ki, işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri kompleks miqyas alıb. Bu gün bütün dünya Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və yenidənqurma işlərinin fonunda Azərbaycanın təkbaşına, yalnız öz daxili imkanları hesabına necə nəhəng layihələr həyata keçirdiyini görür. Dövlətimizin maliyyə imkanları yüksəldikcə bu istiqamətdə ayrılan vəsaitlərin həcmi də artacaq və Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev milli prioritet etdiyi işğaldan azad olunan bölgələrimizin bərpası prosesini ən yüksək səviyyədə başa çatdıracaq.

# VƏTƏN MÜHARİBƏSİNİN DAHA 68 İŞTİRAKÇISI POLİS ORQANLARINDA XİDMƏTƏ QƏBUL OLUNDU







İyulun 13-də daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Sıra baxışında kütləvi informasiya vasitələrində əvvəlcədən verilmiş elana uyğun olaraq Nazirliyə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 234 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 68 nəfəri Vətən müharibəsinin iştirakçısı olub.

Nazir V.Eyvazov daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə polis adını və şərəfini daim uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini artırmalarını, öz üzərlərində səylə çalışmalarını və vətəndaş məmnunluğunun təmininə layiqli töhfə vermələrini tövsiyə edib.

# İÇDİYİ ANDA, DAŞIDIĞI ADA SADİQ OĞUL

## Adları Vətənlə qoşa çəkilənlər ölümə meydan oxuyanlardır



Vətən uğrunda şəhidlik zirvəsinə ucalmış igid oğullarımızdan biri də DİN Daxili Qoşunlarının hərbi qulluqçusu, baş çavuş Vəlizadə Anar Afət oğludur. O, 1994-cü il iyulun 3-də Salyan rayonunun Cəngən kəndində doğulub.

Orta təhsilini Sovet İttifaqı Qəhrəmanı Məhərrəm Dadaşov adına Kürqaraqaşlı kənd tam orta məktəbində alıb. Anar müddətli həqiqi hərbi xidmətini 2012-ci ilin iyul ayından 2014-cü ilin yanvar ayınadək Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində keçib. Hələ uşaq yaşlarından bərbərlik sənətinə maraq göstərib və bu peşənin bütün incəliklərini öyrənib. Hətta valideynlərinə əsgəri xidmətini başa vurduqdan sonra, kəndə qayıdaraq bərbər kimi fəaliyyət göstərəcəyini də deyib. Lakin müddətli həqiqi hərbi xidmətdən qayıtdıqdan sonra fikrini dəyişib və həyatını hərbçi kimi davam etməyi qarşısına məqsəd qoyub. Bu səbəbdən də tərxis olunduqdan bir müddət sonra yenidən hərbi xidmətə qayıtmağa qərar verib. Beləliklə, 2014-cü ilin iyul ayında Daxili Qoşunların Hacıqabul rayonunda yerləşən "N" saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Burada xüsusi vasitələrin tətbiqi bölməsinin manevr qrupunda baş atıcı, atıcı-sanitar, 2015-ci ilin may ayından isə hərbi hissənin "Yarasa" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsinin istehkamçı yarımqrupunda istehkamçı vəzifələrində xidmət edib. 2020-ci ilin yanvar ayından qoşunların Sumqayıt şəhərindəki "N" saylı hərbi hissəsinin "Əqrəb" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsində istehkamçı vəzifəsində xidmətini davam etdirən cəsur silahdaşımız şəhadətə qovuşduğu günədək əsl xüsusi təyinatlı amalı ilə Vətənə olan borcunu şərəflə yerinə yetirib.

Xidmət etdiyi dövrdə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin Göygöl rayonu ərazisində təşkil etdiyi istehkamçı ixtisası üzrə kursu müvəffəqiyyətlə bitirib və ona müvafiq sertifikat verilib.

Daxili Qoşunların Sumqayıt şəhərində yerləşən "N" saylı hərbi hissəsində "Əqrəb" şərti adını daşıyan xüsusi təyinatlı dəstənin komandiri, Vətən müharibəsi iştirakçısı mayor Ələsgər Muxtarov vaxtilə tabeliyində xidmət etmiş silahdaşının vətənpərvərliyindən və cəsurluğundan böyük qürur hissi ilə danışır: "İndiki kimi yadımdadır, Vətən müharibəsinin ilk günündə, döyüşöncəsi dəstənin şəxsi heyətinə müraciət edərək, hər hansı bir problemlərinin, eləcə də ailələri ilə bağlı nigarançılıqlarının olub-olmaması ilə maraqlanırdım. Anarın bir azyaşlı oğlunun olduğunu, yaxın zamanlarda ikinci övladının da dünyaya gələcəyini, həmçinin, ailə vəziyyəti ilə bağlı bir sıra çətinliklər yaşadığını bilirdik. Lakin bütün bunlara baxmayaraq, Anar qəti şəkildə döyüş əməliyyatlarında iştirak etmək istədiyini, yoldaşları ilə birgə son nəfəsinədək vuruşacağını bildirdi.

İlk döyüşümüz 2020-ci il sentyabrın 27-də Cəbrayıl istiqamətindən başladı. Sentyabrın 30-da, axşam saatlarında dəstəmiz ayrı-ayrı qruplar şəklində Müdafiə Nazirliyinin xüsusi təyinatlı bölmələri ilə birgə Arazboyu və Lələtəpə istiqamətindən uğurlu hücum əməliyyatı keçirərək, heç bir itki vermədən düşmənin qarşısında yerləşən istehkam səddini yarmağa və əsas mövqelərindən bir neçəsini tutmağa müvəffəq oldu. Bu hərbi əməliyyatlar zamanı baş çavuş A.Vəlizadə bacarıqlı istehkamçı kimi öndə gedərək irəlilədiyimiz istiqamətlərdə qüvvələrimizin təhlükəsiz hərəkəti üçün erməni işğalçılarının illərlə möhkəmləndirdiyi, həmçinin, "keçilməz" hesab etdikləri sədlərin mina və digər partlayıcı vasitələrdən təmizləyərək misilsiz xidmətlər göstərdi. Bununla yanaşı, Anar iştirak etdiyi döyüşlər zamanı silahdaşları ilə birgə düşmənin xeyli sayda canlı qüvvəsinin və hərbi texnikasının məhv edilməsində fəal iştirak etdi.

Vətən müharibəsi zamanı Anar iki dəfə - oktyabrın 4-də Cəbrayıl istiqamətindəki döyüşdə qumbaraatan mərmisinin yaxınlığına düşməsi nəticəsində barotravma (kontuziya), ayın 10-da isə Füzuli rayonunun Qarakollu kəndində düşmənin qurduğu pusquda mövqelərimizə atılan əl qumbarasının partlaması səbəbindən kürəyindən üç qəlpə yarası almışdı. Bütün bunlara baxmayaraq, o, cəbhə bölgəsində olan həkimlərə özünü çox yaxşı hiss etdiyini və sağlamlığı ilə bağlı hər hansı bir probleminin olmadığını deyərək, tibb işçilərinin təkidli tələblərinə rəğmən, müalicə almaq üçün hospitala getməkdən imtina edərək, yenidən döyüşlərə qatılmışdı.

Anar ikinci dəfə yaralandıqdan sonra ona qız övladının dünyaya gəldiyini demişdilər. Mən onu yanıma çağırıb, bu münasibətlə öncə təbrik edib, sonra təkidlə həm üzünü görməmiş övladına qovuşmasını, həm də müalicəsini davam etdirməsinin məqsədəuyğun olduğunu desəm də, inadından dönməyərək, yoldaşları ilə birgə sonadək düşmənə qarşı mübarizə aparmaq arzusunda olduğunu bildirdi...".

Baş çavuş A.Vəlizadənin cəsur silahdaşları: Qoşunların Sumqayıtdakı "N" saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində yarımqrup komandiri kiçik gizir Ruslan Əmrahlı, pulemyotçu baş çavuş Hacımurad Məmmədov və atıcı-sanitar çavuş Tahir Babayev Vətən müharibəsi zamanı onunla birgə Cəbrayıl, Füzuli, Xocavənd, Şuşa istiqamətlərində gedən döyüşlərdə iştirak ediblər. Onların bildirdiklərinə görə, Anar 2020-ci il noyabrın 5-dən 6-na keçən gecə Şuşa qalasının yaxınlığındakı dərədə, düşmən tankından atılan mərminin yaxınlığında



partlaması nəticəsində aldığı ağır qəlpə və yanıq xəsarətlərindən şəhid olub.

17 noyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə isə Anarın 9 noyabr 2020-ci ildə Şuşada hərbi əməliyyat nəticəsində törənmiş zədələnmələr səbəbindən şəhid olduğu yazılıb. Bununla yanaşı, bir sıra nəşrlərdə baş çavuş A.Vəlizadənin 2020-ci il noyabrın 7-də şəhidlik məqamına yüksəldiyi göstərilib.

Baş çavuş A.Vəlizadə 2020-ci il noyabrın 12-də Salyan rayonunun Cəngən kəndinin qəbiristanlığında dəfn olunub. Hərbi qulluqçumuzun Fariz və Fatimə adlı övladları yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 15, 22 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamlarla baş çavuş Vəlizadə Anar Afət oğlu (ölümündən sonra) "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

*mayor Anar Əhmədov*

# Etibar etməkdə, etimad göstərməkdə yanılmırlar

İctimai asayişin təmin edilməsində və cinayətkarlığa qarşı mübarizədə polis bölmələrinin avanqard qüvvə kimi çıxış etməsi onların əhəmiyyətini hər zaman göz önündə tutur. İnzibati ərazilərdəki sakinlərlə qurulan doğru-dürüst münasibət nəticə etibarı ilə vətəndaşlarda polisə güclü inam, güvən hissi yaradır, bu isə ümumi sabitliyə töhfə verir.

Binəqədi RPİ-nin 43-cü Polis Bölməsi də bu mənada istisna deyil. Bölmənin fəaliyyəti barədə redaksiyamıza gələn təşəkkür məktubları fikirlərimizi təsdiqləyən əsas "dəlilimizdir". Binəqədi sakinləri xidməti vəzifə borclarını layiqincə yerinə yetirən bölmənin əməkdaşlarına minnətdarlıqları ilə yanaşı, yaşadıqları ərazidə narkomaniyaya qarşı aparılan mübarizədən xüsusilə söz açır, üzləşdikləri problemlərin həlli istiqamətində müraciətlərinə operativ baxılmasını təqdir edirlər.



Yazılanların, deyilənlərin şahidi olmaq üçün sakinlərlə həmsöhbət olduq. Bu arada həmkarlarımızın Bakı kəndlərinə məxsus mühafizəkarlığı qorumaları da diqqətimizdən yayınmadı. Ədəb-ərkan, etiket qaydaları, böyüyə-kiçiyə hörmət DİN-ə ünvanlanan onlarla təşəkkür məktubunun məhz bu səbəbdən qaynaqlandığının nümunəsi idi. "Görünən dağa bələdçi" lazım olmasa da elə söhbətimizə körpü salmaq üçün müsahibimiz bölmənin rəisi, polis polkovnik-leytenantı Nəriman Bayramov oldu. Düzü, bölmənin fəaliyyəti ilə bağlı məlumatları işıqlandırmaq üçün o bizi müavininə və ya digər əməkdaşlara da yönəldə bilərdi. Ancaq...

Deməli, "Elin gözü tərəzidir" məsəli əbəs yerə deyilməyibmiş. Bu gün polis-vətəndaş münasibətləri ona görə zirvədədir ki, vətəndaş dərdini "birinci"yə demək üçün heç bir baryerlə üzləşmir. Problemi dinlənilir, həllini tapır, digər məsələlərlə bağlıdırsa aidiyyəti üzrə yönləndirilir.

Birinci yarımil ərzində görülən işləri, cinayətkarlıqla barışmaz mövqenin nümunəsi olan bu faktları: 30-a yaxın narkotik vasitələrin satışının qarşısının alınmasını, narkotik istifadəçisi olan 85 nəfərin məsuliyyətə cəlb olunmasını, 20 mənzil oğurluğunun üstünün "isti izlərlə" açılmasını yuxusuz gecələrin, ayıq-sayıq xidmətin bəhrəsi kimi diqqətimizə çatdıran bölmə rəisi deyir ki, hələ görüləcək işlər çoxdur.

Maarifləndirmənin də ən kəsərli vasitə, cinayətkarlıqla mübarizənin bir forması olduğunu yaxşı bilən bölmə əməkdaşları əhalinin sıx toplaşdığı yerlərdə, ictimai müəssisələrdə, məktəblərdə profilaktik görüşlər keçirir, söhbətlər aparırlar. Narkotik vasitələrin yeniyetmələr arasında yayılmasının yolverilməzliyinə diqqət çəkən bölmə rəisi əməkdaşların belə hallara qarşı barışmaz olduğunu, aşkarlanmış faktlarla bağlı hüquqi tədbirlər görüldüyünü deyir...

Polis polkovnik-leytenantı N.Bayramovun polislə vətəndaş arasında qarşılıqlı inam olanda cinayətkarlığa, onun digər təzahürlərinə, xüsusilə narkomaniyaya qarşı qətiyyətlə mübarizə aparmaq asan olur fikri hələ sözügedən bölmənin fəaliyyəti ilə bağlı "Polis"ə, DİN rəhbərliyinə bundan sonra da yazılacaq təşəkkür məktublarının davamlı olacağından xəbər verirdi...

Yeri gəlmişkən, kömək etmək, dəstək vermək arzusu adamın ürəyində o zaman baş qaldırır ki, qarşı tərəfə qəlbində azacıq da olsa etibarın və etimadın yaranmış olsun. Bu, o deməkdir ki, xalqımız asayişi və dövlətçiliyi ən yüksək səviyyədə qorumaq iqtidarında olan həmkarlarımıza etibar etməkdə, etimad göstərməkdə yanılmayıb.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*



# Veteranlar hesabat verdi

**DİN Veteranlar Şurası daxili işlər orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı cari ilin I yarımili ərzində gördüyü işlərə dair hesabat verib.**

Şura işini DİN-in aidiyyəti əmr, göstəriş və digər normativ-hüquqi sənədləri əsasında quraraq bir sıra səmərəli tədbirlər həyata keçirib. Belə ki, ictimai təhlükəsizliyin təmin edilməsində, hüquq pozuntularının profilaktikasında, əməliyyat-axtarış tədbirlərinin planlaşdırılmasında, şəxsi heyətin təlim-tərbiyəsində, eləcə də əhali arasında hüquqi biliklərin təbliğində veteranların təcrübəsindən geniş və səmərəli istifadə olunub.

DİN Veteranlar Şurasının sədri, istefada olan polis polkovniki Fərhad Süleymanov qəzetimizə bildirib ki, 2022-ci ilin I yarımili ərzində veteranların köməyi ilə ümumilikdə 4802 cinayət işinin açılması təmin edilib. Narkomaniya ilə mübarizə çərçivəsində veteranlar respublika üzrə 1482 məktəbdə maarifləndirici görüşlər keçiriblər.

Daxili işlər orqanlarında qanunun aliliyinin təmin olunmasında, gənc əməkdaşların dövlətə və dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunmasında yaxından iştirak edən veteranların müxtəlif mükafatlarla təltif olunduğunu deyən Şura sədri bu istiqamətdə həyata keçirilən tədbirləri davam etdirildiyini, eyni zamanda respublikanın kütləvi informasiya vasitələrində, radio, televiziya, xəbər saytlarında və qəzetlərdə geniş işıqlandırıldığını da diqqətə çatdırıb.

*Teymur Əlizadə,*
*polis mayoru*

# DİQQƏT GÖSTƏRMƏK, DƏSTƏK VERMƏK BORCUMUZDUR

## Vətəni bütövlüyünə qovuşduranların yadigarları bizə əmanətdir














Hər il olduğu kimi, bu il də Qurban bayramı ölkəmizdə böyük sevinc və yüksək əhvali-ruhiyyə ilə qeyd olundu. Həmrəyliyin, saflıq və mərhəmətin təntənəsinə çevrilən bu bayramda tənhalarla, aztəminatlı ailələrlə yanaşı, torpaqlarımızın azadlığı və bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalanların ailə üzvləri, qazilər də ziyarət olunur, onlara diqqət və qayğı göstərilir.

Bu il də həmkarlarımız ənənələrinə sadiq qalıb Vətəni bütövlüyünə qovuşduranların ailə üzvlərini, övladlarını bayram sovqatları ilə sevindiriblər.

Xızı, Göyçay, Bərdə, Beyləqan, Biləsuvar, Lənkəran, Xaçmaz, Masallı, Şəki, Oğuz, İsmayıllı və digər Polis Şöbələrinin əməkdaşları onları ziyarət edib, torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçənlərin əziz xatirəsini ehtiramla anıblar.

Astarada isə Rayon Polis Şöbəsinin əməkdaşları Vətən müharibəsində şəhid olan DİN-in Daxili Qoşunlarının hərbi qulluqçusu, baş çavuş Orxan Babayevin ailəsini ziyarət ediblər. Qeyd olunub ki, Vətən torpaqları və müqəddəs amal uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi daim qəlblərdə yaşayacaq, onların igidlik və qəhrəmanlıq dolu ömür yolu gənc nəsillər üçün daim örnək olacaqdır.

Görüşlərdə bildirilib ki, respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsi xalqımız tərəfindən daim əziz tutulur. O da vurğulanıb ki, müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların hər cür qayğı ilə əhatə olunması dövlət rəhbərliyi tərəfindən həyata keçirilən siyasətin əsas istiqamətlərindəndir.

Şəhid ailələri, qazilər göstərilən diqqət və qayğıya görə ölkə və DİN rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

# Təşəkkür, inspektor!



Adətən məlumatsız gənclər, yetkinlik yaşına çatmayanlar həyatda kriminal risklərlə çox rastlaşırlar, daha doğrusu, ya risklər onları, ya da onlar riskləri "tapırlar". Buna görə yeni nəslin qorunma altına alınması yetkinlik yaşına çatmayanlarla profilaktik iş aparan inspektorların üzərinə böyük məsuliyyət, vəzifə qoyur və cinayətkarları qabaqlamağın əhəmiyyəti bu zaman özünü aydın büruzə verir.

Belə bir vəzifə öhdəliyinin məsuliyyətinə çiyin verən, çiyinlərindəki aylı-ulduzlu "paqonların" haqqını təslim edən yüzlərlə əməkdaşımız var ki, **Nəsimi RPİ İctimai Təhlükəsizlik Şöbəsinin Yetkinlik Yaşına Çatmayanlarla Profilaktik İşin Təşkili Bölməsinin inspektoru, polis kapitanı Yeganə Zeynalova** da onlardan biridir.

Bu xanım həmkarımız öz fəaliyyəti, həmçinin tələblərlə keçirilən profilaktik-maarifləndirici tədbirlərdəki təşəbbüsləri ilə Bakı Xoreqrafiya Akademiyasının diqqətini çəkib və təhsil ocağının rəhbərliyi bu barədə məktub yazaraq DİN-ə minnətdarlığını ifadə edib. Məktubda Nəsimi RPİ-nin əməkdaşlarının, xüsusilə də polis kapitanı Yeganə Zeynalovanın tədris ocağında zərərli vərdişlərə, narkomaniyaya qarşı mübarizə, məişət zorakılığı, uşaq hüquqları ilə bağlı mövzularda görüşlərin keçirilməsindəki rolundan bəhs olunur.



Polis idarəsinin narkotiklərlə mübarizə aparan, cinayət-axtarış işini həyata keçirən əməkdaşları ilə birlikdə təşkil edilən profilaktik tədbirlərdə aktiv iştirak edən Y.Zeynalova, əslində, xanım polislərin daxili işlər orqanlarında çətin xidməti şəraitə zəriflik gətirdikləri kimi, kişi həmkarlarından heç də geri qalmadıqlarını və iş yükünü bölüşmə gücünə sahib olmanı təcəssüm etdirir. Hər bir əməkdaş üçün cəmiyyətin içindən gələn təqdir, alqış, müsbət rəy nəticə etibarı ilə polisin nüfuzunu yüksəldir, hamımıza başucalığı gətirir və bu fakt göstərir ki, profilaktika sahəsində xidməti vəzifəsinin öhdəsindən gəlməkdən əlavə xanım əməkdaşımız polisin ictimai portretini də doğru-dürüst çəkə bilir.

Onun xidməti vəzifələrini layiqincə yerinə yetirməsini, çətin tərbiyə olunan azyaşlılar, təhsildən yayınan orta məktəb şagirdləri ilə profilaktik işlərin aparılmasında, dövlət köməyinə ehtiyac olan uşaqların sosial müəssisələrə yerləşdirilməsindəki xidmətlərini nəzərə alan Bakı şəhər BPİ rəhbərliyi xanım inspektora təşəkkür elan edib. Biz isə istədik ki, gəncləri, gələcəyimizi qoruyanlardan olan bu həmkarımızın təşəkkürü yalnız şəxsi işdə yazılmaqla qalmasın, həm də ictimai məzmun daşısın...

Polis adını uca tutduğuna görə təşəkkür, inspektor!

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Narkotik satanlar saxlanılıb




Sabunçu Rayon Polis İdarəsinin əməkdaşları daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan D.Xudaverdiyevi saxlayıblar. Şəxsi axtarış zamanı onun əlindəki polietilen torbada 86,869 qram narkotik vasitə olan heroin, eləcə də 26,706 qram psixotrop maddə metamfetamin aşkar edilərək götürülüb. Davam etdirilən tədbirlərlə anası, Bakı şəhər Sabunçu rayon sakini Mahirə Cavadova da polis əməkdaşları tərəfindən saxlanılıb. Onun üzərinə şəxsi axtarış zamanı qara rəngli əl çantasından təmiz çəkisi 602,542 qram narkotik vasitə heroin və 2,810 qram metamfetamin aşkarlanıb.

**RPİ İstintaq Şöbəsinin baş müstəntiqi, polis mayoru Elvin Nəsibovun** apardığı araşdırma zamanı Mahirənin gəlini, Bakı şəhər Suraxanı rayon sakini Aygün Həmidovanın onlarla birgə fəaliyyət göstərdiyi də müəyyənləşib. O, yetkinlik yaşına çatmayanı vədlər verməklə cinayətkar qrupa və ağır cinayətlərin törədilməsinə cəlb etdiyi, qabaqcadan əlbir olan bir qrup şəxs halında, satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitəni, o cümlədən psixotrop maddə metamfetamini küllü miqdarda əldə edib saxlamaqda təqsirləndirilib. Belə ki, A.Həmidova şəxsiyyəti istintaqa məlum olmayan şəxslə cinayət əlaqəsinə girərək öncədən razılığa gəldikləri tarixdə küllü miqdarda, çəkisi 691,752 qram heroini, 29,516 qram metamfetamini müvəqqəti yaşadığı evə gətirib. Sonra narkotik vasitəni kiçik çəkilərlə ayrı-ayrı bükümlərdə paketləşdirib və yetkinlik yaşına çatmayan qaynına verərək söylədiyi ünvanlara çatdırmağı deyib. İstintaq zamanı o da müəyyən olunub ki, Aygünün həyat yoldaşı Həzrət Xudaverdiyev də bir müddət öncə eyni əməllərə görə həbs olunub.

Cinayət işinin ibtidai istintaqı tamamlanıb, ittiham aktı ilə birlikdə aidiyyəti üzrə rayon prokurorluğuna göndərilib.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Polis veteranının "Xəta və xatirə"si

"Xatirə və Xəta" bədii filmi ilk uğurunu Fransanın Kann şəhərində qazandı. Bu, təkcə bizim komandanın deyil, bütün Azərbaycanın uğurudur. Bunu "Polis"ə açıqlamasında polis veteranı, filmin ssenari müəllifi və quruluşçu rejissoru Cəlaləddin Qasımov deyib.

C.Qasımov bildirib ki, filmin çəkilişləri bu ilin iyul ayında başa çatıb.




Qeyd edək ki, Cannes World Film Festivalında seçilmiş filmlər siyahısında yer alan bu film koronavirusa qarşı mübarizədə həkimlərlə birlikdə öz həyatını təhlükəyə atan polislərin və müxbirlərin fədakarlığından bəhs edir.

Filmdə əsas rolları Xalq artisti Sabir Məmmədov, Əməkdar artistlər Rövşən Kərimduxt, Flora Hüseynova, Mehriban Xanlarova, aktyorlar Əjdər Zeynalov və Rövşən Məmmədov canlandırıblar.

*Natiq Abdullayev,*
*polis mayoru*

# Şəhid övladları üçün yay düşərgəsi təşkil olunub



“YAŞAT” fondunun və “ASAN Könüllüləri” Təşkilatının birgə təşkilatçılığı ilə Qalaaltı istirahət mərkəzində şəhid övladları üçün yay düşərgəsi fəaliyyətə başlayıb.

Düşərgənin media dəstəkçiləri Azərbaycan Televiziyası və Radio Verilişləri QSC, İctimai Televiziya və Radio Yayımları Şirkəti və ASAN Radiodur.

Layihə çərçivəsində uşaqlar üçün əyləncələrin, öyrədici təlimlərin, teatrların, tanınmış ictimai xadimlərlə görüşlərin, eləcə də gəzməli-görməli yerlərlə tanışlıq, konsultasiyalar və məşhur müğənnilərin konsert proqramlarının keçirilməsi nəzərdə tutulub.

DİN İdman Cəmiyyətinin fiziki hazırlıq üzrə baş inspektoru, polis polkovnik-leytenantı Eduard Məmmədov yay düşərgəsinin qonağı olub. O, uşaqlara kikboksinq barədə məlumat verib, təlimlər keçib. Hər birinin xüsusi istedada malik olduğunu qəzetimizə bildirən idmançı həmkarımız uşaqlar arasında kiçik turnir də təşkil edib.

Məlumat üçün qeyd edək ki, avqustun sonunda yekunlaşacaq layihədə hər biri 6 gün olmaqla 300 şəhid övladını əhatə edəcək 6 düşərgənin təşkil olunması planlaşdırılıb.



# Həmkarlarımızdan maraqlı təşəbbüs





Yollarda hərəkətin təhlükəsizliyinin təminində, sürücülərin avtomobilləri idarəetmə intizamının möhkəmləndirilməsində Baş Dövlət Yol Polisi İdarəsi əməkdaşlarının son dövrlər fərqli mövqe nümayiş etdirmələri ictimaiyyət tərəfindən maraqla və həssaslıqla qarşılanır. Belə ki, qayda pozan sürücülərlə, o cümlədən hərəkət iştirakçıları ilə qurulan ünsiyyət, aparılan profilaktiki söhbətlər, onlara şəxsi təhlükəsizlikləri naminə qaydalara ciddi riayət etmələrinin tövsiyə olunması polisin cərimə tətbiq etmək deyil, həyat qurtarmaq missiyasını bir daha gözlər önünə sərmiş olur.

Qurban bayramı ilə bağlı qeyri-iş günlərində Baş idarənin təşəbbüsü ilə Bakı-Şamaxı yolunda, Müşfiqabad postunda daha bir maraqlı tədbir həyata keçirilib.

Rayonlara üz tutanları qaydalara ciddi riayət etməyə dəvət etmək, həbelə baş verə biləcək qəzaların qarşısını almaq üçün yol polisləri avtomobillərdə olan uşaqlarla söhbət ediblər. Balacalara idarə tərəfindən hazırlanmış hədiyyələr təqdim olunub və şərti yol polisləri elan ediliblər. Uşaqlara valideynlərinin yollarda qayda pozduqları zaman xəbərdarlıq etmək kimi mühüm işlər tapşırılıb. Eyni zamanda, sürücülərə bəzi yollarda təmir işləri getdiyini nəzərə almaq, eləcə də yol nişanlarının tələblərinə riayət etmək barədə xəbərdarlıq edilib.

Tədbir zamanı **Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşı, polis baş leytenantı Toğrul Nəsirli və nəqliyyat eksperti Elməddin Muradlı** da sürücülərlə həmsöhbət olublar.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Həyatlarını təhlükəyə atıb həyat xilas etdilər



“Bakıda hərəkət zamanı səhhətində yaranan problem nəticəsində sürücü sükan arxasında huşunu itirib. Hadisə yerində olan polis naryadları vəziyyəti başa düşüb, dərhal müdaxilə ediblər” başlığı altında paylaşılan videogörüntü internet platformasında vətəndaşlar tərəfindən rəğbətlə qarşılanıb. “Polis” qəzeti olaraq əməkdaşları tanıyıb - tanıtmaq məqsədi ilə soraqlaşdıq. Kiçik araşdırmadan sonra, məlum oldu ki, həmkarlarımız Əlahiddə Çevik Polis Alayının 6-cı bölüyündə xidmət aparırlar.

Elə bu məqsədlə onlarla xidməti ərazidə görüşdük. Xilaskarlar, **polis baş serjantı Rüfət Kərimov və polis serjantı Rəşad Abdullayev:** “İyulun 8-də saat 11:00 radələrində Həsən bəy Zərdabi küçəsində, Respublika Uşaq Xəstəxanasının qarşısında hərəkətdə olarkən, maşınların asta hərəkət etməsi səbəbindən, tıxac yaranmışdı. Biz qarşıdakı 99-XU-929 dövlət nömrə nişanlı "KİA Sorento" markalı nəqliyyat vasitəsinə yaxınlaşdıqda, sürücünün halsız vəziyyətdə olmasının şahidi olduq. Dərhal, avtopatrulu saxlayıb, onun maşınını dayandırmağa müvəffəq olduq. İlkin tibbi yardım göstərdik və yaxınlıqdakı xəstəxanaların birinə çatdırdıq. Həkimlərin müdaxiləsindən sonra, məlum oldu ki, sürücü zəhərlənib. O, məhz bu məqsədlə xəstəxanaya gedirmiş.

Şükürlər olsun, bədbəxt hadisənin qarşısını ala bildik. Düşünmək belə çətindi, yüksək sürət zamanı nələr baş verərdi”...

Sürücü Yusif Mirzəyevlə də əlaqə saxlayıb, səhhəti ilə maraqlandıq. O, həyatını xilas edən polislərə, qəzetimiz vasitəsilə də dərin təşəkkürünü bildirdi.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Minifutbol üzrə açıq şəhər çempionatı başa çatıb

Milli Qurtuluş Gününə həsr olunan, 13 komandanın iştirakı ilə 1 ay davam edən və iyunun 30-da final oyunu keçirilən minifutbol yarışının qalibi məlum olub. Quba regional qrupumuzdan verilən məlumata görə, rayonda fəaliyyət göstərən müxtəlif idarə və müəssisələrin rəhbərləri və əməkdaşları, idman ictimaiyyətinin nümayəndələri, eləcə də Xaçmaz Rayon Polis Şöbəsinin əməkdaşlarının iştirak etdiyi minifutbol çempionatının final oyununda Xaçmaz RPŞ və Azəriqaz İB komandaları qarşılaşıblar. Nəticə 4:3 hesabı ilə polis əməkdaşlarının xeyirinə olub. Çempionlar kubok və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

## ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

**Şamaxı RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyulun 7-də rayon ərazisindəki mağazaların birindən 950 manatı oğurlamaqda şübhəli bilinənlər - şəhər sakinləri A.Abzərov, Ü.Vahidov və əvvəllər məhkum olunmuş N.Abdullayev saxlanılıblar.

N.Abdullayevin ətrafında aparılan tədbirlərlə onun rayon ərazisindəki “Topaz” mərc oyunları məntəqələrinin birindən 414 manat oğurlaması da müəyyən olunub.

◆◆◆

**Bərdə RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində şəhər sakini, əvvəllər məhkum olunmuş İ.Həsənov saxlanılıb. Şəxsi axtarış zamanı ondan heroin aşkar edilib. Davam etdirilən tədbirlərlə onun idarə etdiyi “Toyota” markalı avtomobilə baxış zamanı oradan 10 qramdan artıq heroin, 53 qramdan artıq marixuana və pnevmatik tapança aşkar edilərək götürülüb.

◆◆◆

**Nəsimi Rayon Mühafizə İdarəsi və Nəsimi RPİ 19-cu Polis Şöbəsi** əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyulun 11-də rayon ərazisində yerləşən ticarət mərkəzlərinin birindən min manat dəyərində qızıl üzük oğurlamaqda şübhəli bilinən Qazax rayon sakini, əvvəllər məhkum olunmuş A.Osmanov saxlanılıb.

◆◆◆

**BCAİ və Şirvan ŞPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində 4 il əvvəl şəhər ərazisində “Mercedes” markalı bir avtomobildən 16 min manat və sənəd oğurlamaqda şübhəli bilinən Yardımlı rayon sakini, əvvəllər məhkum olunmuş R.Dadaşzadə saxlanılıb.

◆◆◆

**Şirvan Şəhər Polis Şöbəsinə** müraciət edən şəhər sakini R.Cəfərov bir nəfərin ona 7 ədəd 50 dollarlıq əskinas verərək 591 manatını aldığını, sonradan isə həmin əskinasların saxta olmasını aşkar etdiyini bildirib.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində saxta əskinasları verməkdə şübhəli bilinən Bakı şəhər sakini R.Sadıqov müəyyən edilərək saxlanılıb.

◆◆◆

**Sabunçu RPİ-nin 14-cü Polis Bölməsinə** iyulun 8-də saat 01:00 radələrində Maştağa qəsəbə sakini R.İsakovun xuliqanlıq zəminində qonşuluqda yaşayan qardaşı Rəşadın həyətinə qumbara atması barədə məlumat daxil olub. Partlayış nəticəsində evin pəncərə şüşələri sınıb, divarı zədələnib, yerin beton örtüyü dağılıb, xəsarət alan olmayıb.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində R.İsakov saxlanılıb.

◆◆◆

**Ağcabədi RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Hüsülü kənd sakini, əvvəllər məhkum olunmuş R.Əliyevin yardımçı təsərrüfatına baxış zamanı oradan “AK-74” markalı avtomat silah, 105 ədəd patron və 2 patron darağı aşkar edilərək götürülüb.

◆◆◆

**BCAİ və Şirvan ŞPŞ əməkdaşlarının** birgə keçirdikləri əməliyyat tədbirləri nəticəsində 2020-ci ilin oktyabr ayında Şirvan şəhərində “Hyundai” markalı bir avtomobildən 6200 manat oğurlamaqda şübhəli bilinən şəhər sakini, əvvəllər məhkum olunmuş E.Səməndərli saxlanılıb.

## STATİSTİKA

### Kriminal icmal

- İyulun 6-dan 13-dək olan müddət ərzində ölkə ərazisində qeydə alınan cinayətlərdən 336-nın, eləcə də əvvəlki dövrlərdən bağlı qalan cinayətlərdən 57-nin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.
- Axtarışda olduğuna görə ümumilikdə 247, o cümlədən borclu şəxs qismində axtarışda olan 172 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.
- Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 13 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 16 nəfər ölüb, 1 nəfər isə xəsarət alıb.
- Narkotiklərlə əlaqəli 156, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 13 fakt müəyyən edilib.

*Natiq Cavadov*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9944
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:30
Qiyməti 40 qəpik